

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 121 (23.533)

*28 iyul 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək deyib: – Bu gün siz Təhsil naziri vəzifəsinə təyin olunursunuz. Sizə çox böyük etimad göstərilir. Bu etimadı siz öz işinizlə doğrultmalısınız. Siz gəncsiniz, sizin təyinatınız, eyni zamanda gənclərə göstərilən etimadın növbəti təzahürüdür.

Bildiyiniz kimi, ölkəmizdə gəncləşmə siyasəti aparılır, gənclər çox önəmli vəzifələrə təyin edilir və hesab edirəm ki, hazırda Azərbaycanda idarəetmə sahəsində çox müsbət təcrübə əldə olunub. Yaşlı nəslin təcrübəsinin və gənc nəslin müasirliyinin, novatorluğunun sintezi ölkəmizin uğurlu inkişafına xidmət göstərir. Gənc olmağınıza baxmayaraq, sizin təhsil sahəsində təcrübəniz var. Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışmısınız. Bu günə qədər Təhsil İnstitutunun direktoru vəzifəsində işləyirsiniz. Ona görə əminəm ki, təhsil qarşısında duran problemlərlə bağlı sizin geniş fikriniz, məlumatınız var. Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir.

Təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına böyük etimada görə minnətdarlığını bildirib.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında verilmiş tapşırıqların icrası, 2020-ci ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasında nazir Bəhruz Bayramov məruzə ilə çıxış edib. Bildirib ki, 1070 hektarı 2020-ci ildə olmaqla, 4478 hektar sahədə qapalı suvarma sistemlərinin tikilərək istifadəyə verilməsi əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və məhsul bolluğunun yaradılmasına səbəb olub. Taxılçılığın strateji əhəmiyyətə malik olması diqqət mərkəzində saxlanılıb, 2020-ci ilin məhsulu üçün 36 min 99 hektarı payızlıq, 780 hektarı isə yazlıq olmaqla, ümumilikdə, 36 min 879 hektar sahədə taxıl əkini aparılıb, ötən illə müqayisədə əkin sahəsi 3571 hektar artıb. Həmçinin cari ildə muxtar respublika üzrə 23 min 142 hektar sahədə yazlıq bitkilər əkilib.

Qeyd olunub ki, görülən tədbirlər nəticəsində hazırda muxtar respublikada 5157 hektar sahədə meyvə bağları mövcuddur ki, bunun da 4600 hektarı barverən bağlardır. Muxtar respublikanın iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün “Araz” Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb.

Vurğulanıb ki, əkin işlərinin mütəşəkkil keçirilməsində kənd təsərrüfatı texnikaları başlıca şərtlərdəndir. Bu məqsədlə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 177-si 2020-ci ilin ötən dövründə olmaqla, cəmi 2916 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilib, ondan 2272-si lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 175-i isə nağd və ya köçürmə yolu ilə satılıb. Ümumilikdə, muxtar respublika üzrə 3556 texnika və texnoloji avadanlıq mövcuddur.

Bildirilib ki, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılıb. 2002-2020-ci ilin 1 iyul tarixinədək süni yolla mayalandırılmış 90 min 982 inək, düyə və camışlardan 59 min 76 baş cins bala alınıb. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən 2015-2020-ci ilin yanvar-iyun aylarında süni mayalanma yolu ilə alınmış 30 min 151 baş cins buzovun 27 min 731-nə görə sahibkarlara 2 milyon 773,1 min manat subsidiya verilib. Hazırda aprel, may və iyun aylarında doğulan 2420 baş buzova subsidiya verilməsi üçün sənədləşmə işləri aparılır.

Diqqətə çatdırılıb ki, son illər ərzində dövlət maliyyə dəstəyi ilə muxtar respublikada 90 böyük heyvandarlıq, 75 quşçuluq, 4885 arıçılıq, 16 balıqçılıq təsərrüfatı, 14 süd, 1 gön-dəri emalı, 1 balıq konservi və 1 yem istehsalı müəssisəsi fəaliyyət göstərir. 1 iyul 2020-ci il tarixə təsərrüfatlarda 126 min 467 baş iribuynuzlu, 799 min 878 baş xırdabuynuzlu heyvan, 1 yanvar 2020-ci il tarixə 1 milyon 307 min baş quş qeydə alınıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1704 baş iribuynuzlu, 11 min 527 baş xırdabuynuzlu heyvanın, 14 min 280 baş quşun çox olması deməkdir. Görülmüş işlərin nəticəsidir ki, 2020-ci ilin ötən dövrü ərzində kənd təsərrüfatının ümumi məhsulu 139 milyon 887 min manat olub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Nail ƏSGƏROV**

* * *

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən kollegiya iclasını giriş sözü ilə komissiyanın sədri İsmayıl Qəribli açıb. Bildirib ki, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 2020-ci ilin 6 ayı ərzində dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilmiş, 5 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 9 qərarı ləğv edilmişdir.



Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış üçüncü sessiyasında dövlət qulluğuna və digər orqanlara qəbul imtahanlarının dövriliyinin təmin edilməsi, kadr hazırlığı üzrə kursların təşkili və test bankının yenilənməsinin təmin edilməsi kimi mühüm məsələlər tapşırılıb.

2020-ci ilin 6 ayı ərzində dövlət orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan olunmuş müsabiqələrin test imtahanları keçirilib. Həmin 5 test imtahanında 503 nəfər iştirak edib, 292 nəfər keçid balını toplayıb. Hesabat dövründə 110 nəfər dövlət qulluğuna qəbul olunub ki, onlardan 66-sı Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın keçirdiyi müsabiqə və müsahibələr nəticəsində, 8-i birbaşa təyinat yolu ilə, 36-sı isə yerli icra hakimiyyəti orqanları tərəfindən işə götürülüb. 99 nəfər dövlət qulluğunda irəli çəkilib, 319 nəfərə ixtisas dərəcəsi verilib, 112 nəfərin dövlət qulluğuna xitam verilib.

Ötən dövrdə test imtahanları zamanı namizədlərin bilik səviyyəsinin daha ətraflı yoxlanılması, qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin test suallarında öz əksini tapması məqsədilə test bankı təkmilləşdirilib.

Komissiya tərəfindən vətəndaşların dövlət qulluğu və vergi orqanlarına, eləcə də ümumi təhsil müəssisələrinə işə qəbulu üçün təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 108 nəfər iştirak edib.

Hesabat dövründə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilmiş 6 maarifləndirici tədbir, seminar və videotəlimdə, ümumilikdə, 201 dövlət qulluqçusu iştirak edib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitə sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, 2020-ci il 1 yanvar tarixə olan məlumata əsasən muxtar respublikada 97793 ailə vardır ki, bu da keçən illə müqayisədə 752 ailə və ya 0,77 faiz çoxdur. Bunlardan 1373-ü qaçqın və məcburi köçkün, 220-si şəhid ailəsidir. Hesabat dövrü ərzində 412 aztəminatlı ailə vardır ki, bu da keçən illə müqayisədə 49 ailə və ya 10,63 faiz azdır. Muxtar respublikada yaşayan 583 uzunömürlü ailə haqqında məlumatlar yaradılan məlumat bazasına əlavə edilib. Diqqətə çatdırılıb ki, muxtar respublikada 230 min 32 qadın yaşayır ki, bu da keçən illə müqayisədə 1678 nəfər və ya 73 faiz çoxdur.

Qeyd olunub ki, məşğulluğun təmin edilməsi məqsədilə aztəminatlı ailədən olan 51 qadın peşə kurslarına cəlb olunub ki, bu da ötən illə müqayisədə 26 qadın çoxdur. Bundan əlavə, 24 əmək qabiliyyətli vətəndaşın, o cümlədən 23 qadının isə işlə təmin olunması üçün məlumatları aid orqanlara göndərilib.

Bəhs olunan dövrdə Avropa İttifaqının maliyyələşdirdiyi və BMT İnkişaf proqramının icra etdiyi layihə çərçivəsində həyata keçirilən “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin yekun konfransı keçirilib. Həmçinin konfransda layihə iştirakçısı olan qadınların hazırladıqları 1600-dən çox əl işindən və istehsal məhsulundan ibarət sahibkarlıq sərgi-satışı təşkil edilib.

Hesabat dövrü ərzində müvafiq layihənin davamı olaraq “Koronavirusdan qorunma tədbirləri” mövzusunda 3 seminar keçirilib. Həmin seminarlarda, ümumilikdə, 39 qadın iştirak edib, onlara Azərbaycan Mikromaliyyə Assosiasiyası və layihə təşkilatçıları tərəfindən sərmayə kapitalının (ümumilikdə, 25550 manat dəyərində vəsait) verilməsi ilə əlaqədar bağlanılan müqavilələr təqdim olunub.

Bildirilib ki, hesabat dövründə 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı silsilə tədbirlər “Müstəqillik illərində Naxçıvan qadınlarının keçdiyi tarixi yol” mövzusunda bayram tədbiri ilə yekunlaşıb. Komitə tərəfindən müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 50 qadına diplom, eləcə də tədbirdə iştirak edən qadınlara hədiyyələr verilib. Həmçinin tədbirdə 1210 rəsm və əl işi, 87 kitab və 580 adda ailə təsərrüfatı məhsulundan ibarət sərgi-satış təşkil olunub.

Çıxışda ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsinin diqqətdə saxlanılmasından, 15 may – Beynəlxalq Ailə Günü və 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə komitə tərəfindən silsilə tədbirlər keçirilməsindən də bəhs olunub. Qeyd edilib ki, muxtar respublika əhalisinin 164 min 546 nəfərini, yəni 35,80 faizini uşaqlar təşkil edir ki, bu da ötən illə müqayisədə 1265 uşaq və ya 0,77 faiz çoxdur. Bəhs olunan dövrdə muxtar respublika üzrə 1814 sağlamlıq imkanları məhdud uşağın rayon, şəhər, illər və xəstəliklər üzrə təhlili aparılıb, bu kateqoriyadan olan 10 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilib.

Bildirilib ki, cari ilin 6 ayı ərzində elektron məlumat bankına 5689 uşaq haqqında fərdi məlumatlar daxil edilib, ümumilikdə, elektron məlumat bankında 30086 uşaq haqqında məlumat işlənilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*İnkişaf edən qəsəbələrimiz*

## Nehrəm qəsəbəsi yeni növrağını yaşayır

***Bu yaxınlarda ölkəmiz, eləcə də Naxçıvan Muxtar Respublikası üçün çox əlamətdar olmuş hadisələrdən biri, şübhəsiz, ölkə Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" imzaladığı Qanuna əsasən Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə dəyişikliklər edilməsi oldu. Alınan qərara əsasən Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər, rayonun Nehrəm və Cəhri kəndlərinə isə qəsəbə statusu verildi. Bu, təkcə adıçəkilən yaşayış məntəqələrinin deyil, muxtar respublikamızın hər bir sakini üçün çox əlamətdardır. Çünki bu yaşayış məntəqələrinin ciddi demoqrafik və sosial-iqtisadi potensialı vardır.***




Babək əhalisinin sayına görə muxtar respublikamızın ikinci böyük rayonudur. Şübhəsiz, belə geniş potensiala malik bir rayonda iki böyük kəndin qəsəbəyə, rayon mərkəzi Babək qəsəbəsinin isə şəhərə çevrilməsinin müəyyən tarixə söykənən dərin sosioloji-demoqrafik və sosial-iqtisadi zəmini vardır. Belə ki, rayonun inzibati ərazi bölgüsündə qismən, lakin çox böyük iqtisadi-siyasi əhəmiyyətə malik dəyişikliklərin edilməsində, ümumən, Naxçıvana xas olan həyat tərzi ənənələri və müstəqillik illərimizdə muxtar respublikada həyata keçirilən sosial siyasət ən mühüm amil rolunu oynayır. Naxçıvan əhalisinin tarixən şəhərləşməyə olan meyli, burada iri yaşayış məntəqələrinin yaranmasına səbəb olan oturaq həyat tərzinin hökm sürməsi, qədim İpək Yolu üzərində ticarət və mədəniyyətin inkişafı, memarlıq və arxitektura sahəsində Naxçıvan məktəbinin bütün Yaxın Şərq və Orta Asiya coğrafiyasında öz sözünü deməsi qədim diyarda şəhər və qəsəbələrin də yaranıb inkişaf etməsinə öz müsbət təsirini göstərib.

Müasir dövrdə də cəmiyyətimizdə şəhər və kənd həyat tərzi elementlərinin bir-birini təqib edərək şəhərin kəndə, kəndin də, öz növbəsində, şəhərə həm iqtisadi-mədəni inkişafda, həm də tarixə, milli dəyərlərə bağlılıqda verdiyi töhfələr, böyük nailiyyətlər göz qabağındadır. Belə ki, ölkəmiz inkişaf edib şəhər və kənd arasında yaşayış səviyyəsinin aradan qaldırılması kimi məsələlər həll olunduqca kəndlərdə qorunub saxlanılan və xalqın milli kimliyini özündə yaşadan həyat tərzi elementlərinin dəyəri də getdikcə artmaqdadır. Bu da, şübhəsiz, hər bir insan ürəyinin dərinliyində kök salmış torpağa bağlılıq və yurd sevgisi hisslərinin böyüklüyündən qaynaqlanır. Bu hisslər Naxçıvanımızın hər qarışında, şəhər-kənd demədən cənnət yaratmaq, onu abad, insanları da xoşbəxt görmək hissləri qədər alidir. Qısa zaman kəsiyində şəhər memarlığı naxışları ilə öz simasını bəzəyən Nehrəm kimi iri kəndlərimiz isə təkcə belə dəyərlərinə görə deyil, eyni zamanda muxtar respublikamızın sosial-iqtisadi həyatındakı əhəmiyyətinə, sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət, təhsil və səhiyyə sahələrindəki inkişafına görə seçilir və cazibə mərkəzi halına gəlirlər. Bütün bunlar da cəmiyyətin ümumi inkişafı fonunda təbii prosesdir.



Əhalisi 16 min 500 nəfərdən çox olan Nehrəm qəsəbəsində 3535 təsərrüfat vardır. Nehrəm Naxçıvan şəhərinə çox yaxındır. Qəsəbə Naxçıvan şəhərindən 9, Babək şəhərindən isə cəmi 4 kilometr məsafədə yerləşir. Rayon mərkəzi Babək şəhərindən keçməklə Naxçıvan şəhəri ilə bütün gün müntəzəm olaraq sərnişin nəqliyyat əlaqələri vardır.





Onu da qeyd edək ki, muxtar respublikada nəqliyyat xidmətinin müasir səviyyədə təşkili istiqamətində növbəti addım kimi Naxçıvan şəhərinin daxilində fəaliyyət göstərən 6 nömrəli marşrut xəttinin artıq Babək şəhərində də işləməsi sakinlərin mənzilbaşına vaxtında çatmalarına şərait yaradır. Qəsəbənin böyük olması rayonun ona çox yaxın olan Araz və Çeşməbasar kimi kəndlərin də onunla müəyyən dərəcədə bağlılığını yaradır.

Qəsəbə əhalisi, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olur. Nehrəmin kənd təsərrüfatına cəlb olunmuş torpaq sahəsi 3500 hektar təşkil edir. Qəsəbədəki təsərrüfatlarda 3000-ə yaxın iribuynuzlu mal-qara, 35 mindən artıq xırdabuynuzlu heyvan vardır. Nehrəmlilər tarixən torpaqlarına bağlı olublar. Müasir dövrdə də muxtar respublikamızda torpaq mülkiyyətçiləri üçün yaradılmış əlverişli şərait qəsəbə sakinlərinin sahib olduqları torpaqlardan daha səmərəli istifadə etmələrinə stimul yaradıb. Nehrəmdə mövcud olan 100-dən artıq iri ailə təsərrüfatı, demək olar ki, ilin bütün mövsümlərində bazara müxtəlif yerli kənd təsərrüfatı məhsulları təklif edirlər. Nehrəmin qovurması, ağartı, bağ və bostan məhsulları Naxçıvandan kənarda da özünə alıcı tapır. Nehrəmli torpaq mülkiyyətçiləri hər il, təqribən, 150 hektar bostanda 4500 tondan artıq qovun-qarpız əkib-becərirlər. 150 hektar üzüm, 40 hektar meyvə bağından ərsəyə gətirilən məhsullar qəsəbədəki 100 tonluq soyuducu anbarda qışa tədarük olunur. Qəsəbədəki mövcud ticarət şəbəkəsində və muxtar respublikanın, demək olar ki, hər yerində Nehrəmdə istehsal olunan məhsullar satışa çıxarılır. Qəsəbə sakinlərinin rahat alış-veriş edə bilməsi üçün mərkəzləşdirilmiş ticarət mərkəzi, bazar kompleksi, ayrıca ət bazarı, iki məişət evi və altı mağaza da Nehrəm camaatının alış-veriş etdiyi məkanlardandır.

Nehrəmdə çox sayda sənaye müəssisəsi vardır. Burada ümumi sayı 18-ə çatan mebel, kərpic, gəc, plastik tara istehsalı, avtotəmir, lavaşbişirmə və süd məhsulları istehsalı obyektləri, istixana və digər istehsal müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrin məhsulları yerli tələbatı ödəməklə yanaşı, muxtar respublikanın digər yerlərində də özünə alıcı qazanıb.

Nehrəmdə sosial həyat çox rəngarəngdir. Qəsəbənin tarixi və bu günü arasında etibarlı körpü yaradan nehrəmlilər öz təsərrüfat və məişət ənənələrini müasir tələblər səviyyəsində qurmağı yaxşı bacarıblar. Dövlət qayğısından hər zaman yetərincə bəhrələnən qəsəbədə insanların rifah halında mühüm rol oynayan sosial-mədəni şərait vardır. Qəsəbədə muzey və əsaslı təmir olunmuş İmamzadə kompleksi, mədəniyyət evi, 8 məscid, 4 yeməkxana, 7 mərasim evi, poçt-rabitə məntəqəsi, bankomat, 1 əczaxana və 1 baytarlıq apteki modern həyat keçirən nehrəmlilərin üz tutduqları məkanlardandır. Qəsəbənin mərkəzindəki istirahət parkı asudə vaxtı mənalı keçirməyə imkan verir. Qəsəbə sakinləri və qonaqlar sərnişin nəqliyyatı baxımından da rahatdırlar. Əvvəlki dövrlərdən Nehrəm istiqamətində müntəzəm rejimlə işləmiş sərnişin nəqliyyatı buraya gəliş-gedişi həmişə asanlaşdırıb. Hazırda qəsəbəyə gələn və onu əhatə edən dairəvi 25 kilometr yol asfaltlaşdırılıb, bütün daxili yollar abadlaşdırılıb, Babək-Nehrəm, Nehrəm-Culfa, Nehrəm-Arazkənd yollarının kənarları yaşıllaşdırılıb. Bundan başqa, qəsəbədə ictimai binalara və fərdi evlərə çəkilən su və kanalizasiya xətti yaxın zamanlarda sakinlər üçün bir başqa rahatlıq da gətirəcək. Bütün bunların nəticəsidir ki, son dövrlərdə bu qədim yurd yerində 50 ev tikilib, qəsəbə müxtəlif istiqamətlərdə genişlənməkdədir.

Nehrəm səhiyyə və təhsil ənənələri, milli dəyərlərimizə sadiqliyi ilə həmişə seçilib. Böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin XIX əsrin sonlarında Nehrəmdə məktəb açıb, bacısı Səkinə xanım da daxil olmaqla, səkkiz qızı məktəbə cəlb etməsi,1896-cı ildə ilk dəfə olaraq kənd məktəbində diyarşünaslıq muzeyi yaratması buranın qədim və zəngin maarifçilik ənənələrindən soraq verir. Heç də təsadüfi deyil ki, Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi Nehrəm qəsəbəsinin əsas mədəni ziyarətgahlarından biri kimi bu gün də öz dəyərini qoruyub saxlayır. Qəsəbə bütün ölkədə tanınan generalları, professor, həkim, pedaqoq və mədəniyyət xadimləri ilə məşhurdur. Buradakı 3 tam orta və bir musiqi məktəbində fəaliyyət göstərən yüzlərlə pedaqoq minlərlə şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Qəsəbədəki xəstəxana və doğum şöbəsində 6 həkim və 40-a yaxın tibb işçisi insanların sağlamlığının keşiyindədir. Dörd baytar həkim də qəsəbədəki təsərrüfatlara lazımi xidmətlər göstərir. Nehrəm bələdiyyəsində isə əsl işgüzarlıq vardır. Dövlət tərəfindən onlara verilmiş 1 xidməti minik avtomobili, 1 məişət tullantıları daşıyan yük avtomobili qəsəbə sakinlərinə xidmət göstərir.

*Nehrəmin qəsəbə statusu alması yerli əhali kimi onları tanıyan hər bir kəsi sevindirib. Nehrəmlilər yaxşı bilirlər ki, qəsəbə sakini olmaq regional inkişafın bütün aspektləri baxımından çox əhəmiyyətlidir. Çünki bu onlara həm müasir qəsəbə rahatlığı, həm də şəhər mədəniyyəti baxımından gələcəkdə daha geniş imkanlar vəd edir. Bütün bunlar isə nehrəmlilərin ürəyincədir.*

✍ **Əli CABBAROV**

## Sədərək üzümünün şöhrəti özünə qaytarılır

### *Bu il daha 2 hektar sahədə üzüm bağı salınıb*

*Sərhəd bölgəmiz Sədərək rayonunda üzümçülük ta qədimdən insanların əsas məşğuliyyət sahələrindən biri olub. Burada yetişdirilən üzüm tarixən şöhrət qazanıb, adla deyilib. Dadı, tamı da digər yerlərdə yetişdirilən eyniadlı məhsullardan seçilir.*

Bununla bağlı Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov deyir ki, hələ sovet dönəmində Sədərək kəndindəki ictimai təsərrüfatda 100 hektarlarla üzüm bağları olub. Kənd adamları həyətyanı təsərrüfatlarında da üzüm becərməklə öz güzəranlarını qurublar. O dövrdə Sədərəkdə fəaliyyət göstərən Şərab zavodu hər il 30 min tondan artıq üzüm qəbul edib. Burada istehsal olunan şərab məhsulları SSRİ-nin bütün respublikalarına göndərilib. Kənd əhalisinin böyük əksəriyyətinin məşğulluq problemi üzümçülüklə yanaşı, həm də bu zavod hesabına təmin edilib. Bu gün də üzümçülük ənənələri qorunan kənddə 50-dən çox üzüm növü arasında elə bil Tanrı "misqalı" sortunu Sədərək torpağı üçün yaradıb. Bölgədə üzüm bağlarının salınmasında da bir növ özünəməxsusluq var. Arxlar dərin olur, arası 3 metr, tənəklər də bir-birindən 2 metr aralıda əkilir. Burada bu üsulla əkilən, yaşı 100-dən yuxarı olan bağlar var. Bərəkətli torpağı, əlverişli iqlimi kənddə "kişmişi", "qızıl üzüm", "ağ üzüm", "hənəqırna", "gülabı" və sair kimi sortların əkilib-becərilməsinə imkan verib.



Samil Kazımov deyir ki, bunun üçün süfrə üzümü əkini sahələri ilbəil genişləndirilir, yeni üzüm bağları salınır. Təkcə bu ilin yaz iməciliklərində 8 hektar sahədə üzüm tingləri basdırılıb, onların yaxşı kök atması və məhsuldarlığın yüksək olması üçün aqrotexniki tədbirlər diqqət mərkəzində saxlanılıb. "Dəhnə" adlanan sahədə isə 2 hektar ərazidə meyvə bağı salınıb. Hazırda Sədərəkdə barverən üzüm bağlarının sahəsi 264 hektardır. Ötən təsərrüfat ilində bu sahələrdən 1495 ton məhsul istehsal edilib.

Samil Kazımovun sözlərinə görə, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafı üzrə Dövlət Proqramı" Sədərək rayonunun əhalisi tərəfindən də rəğbətlə qarşılanıb. Bu proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsinə ciddi önəm verilib, yeni üzüm bağları salınıb və bu iş davam etdirilir.

Sədərək kənd sakini Səməd Əliyevlə söhbət zamanı bildirdi ki, kəndimizin insanları işgüzar və zəhmətkeşdirlər. Bu yurd yerinin sakinləri alın təri ilə bağ-bağat yaratmış, təsərrüfatın müxtəlif sahələri ilə yanaşı, üzümçülüyü də inkişaf etdirmişlər. Mən özüm də bu sahə ilə məşğulam. Üzümü ailəmizin əsas dolanışıq mənbəyi saymaqla təsərrüfatımda yeni sortların yetişdirilməsinə çalışıram. Onlara vaxtlı-vaxtında aqrotexniki qaydada qulluq göstərir, normal inkişafını diqqətdə saxlayıram. Bəzən düşünürəm ki, Tanrı bizim yerləri üzümçülükdən ötrü yaradıb. Hər bir yerin özünəməxsus təsərrüfat uyğunluğu var, bu yer üzümçülüyə uyğun ərazi olduğu üçün daha çox gəlir verir.

Sədərək kənd sakini Mahir Səfərov uzun illərdir ki, üzümçülüklə məşğul olur. Təkcə ötən il həyətyanı sahəsindən 2 tondan artıq üzüm və meyvə satıb, yaxşı gəlir əldə edib. O deyir: – Ötən əsrin 60-cı illərin əvvəllərindən başlayaraq kolxozda işləmişəm. Ancaq o illərdə kolxozçuların vəziyyəti qənaətbəxş deyildi. Elə ki, ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldi, bölgəmizin əsas əkin növü olan üzüm bağlarına diqqət artırıldı. Və bundan sonra gün-güzəranımız yaxşılaşmağa başladı. Bunu bizim nəslin istənilən üzvü təsdiq edər.

Üzümçülüklə məşğul olan digər torpaq mülkiyyətçiləri də söhbət zamanı bildirdilər ki, rayonda bu sahənin inkişafı üzrə həyata keçirilən tədbirlər hər kəsin ürəyincədir.

*Nəticə etibarilə, belə tədbirlərlə Sədərək üzümünün şöhrəti özünə qayıtmaqda, əhalinin məşğulluğu təmin olunmaqda, dükan-bazarlarımızda bolluq yaradılmaqdadır.*

✍ **Muxtar MƏMMƏDOV**

*Muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi inkişaf tədbirlərinin mühüm hissəsini torpaqlardan səmərəli istifadə təşkil edir. Çünki torpaqlardan təyinatı üzrə istifadə olunması belə tədbirlərin vacibliyi ilə yanaşı, müxtəlif sahələr üzrə müsbət nəticələrin əldə olunmasına da zəmin yaradır. Bu baxımdan bələdiyyə mülkiyyətində olan torpaqlardan istifadə də günümüzün aktual məsələlərindəndir. Xüsusilə bələdiyyə torpaqlarının icarəyə verilməsi ilə bağlı hansı qaydalara əməl olunmalıdır? Qanunvericilikdə bununla bağlı hansı normativ-hüquqi qaydalar mövcuddur? Qonaqlarımızla bu məsələləri müzakirə edəcəyik. Mövzu ilə bağlı suallarımızı redaksiyamızın qonaqları – Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi vəzifəsini müvəqqəti icra edən, I dərəcəli ədliyyə qulluqçusu Xəyal Eyvazov, Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Yerquruluşu, geodeziya, xəritəçəkmə və torpaq ehtiyatlarından istifadəyə nəzarət sektorunun müdiri Oqtay Məmmədovdur.*

*Dəyirmi masa*

# Bələdiyyə torpaqlarından istifadə qanunla necə tənzimlənir

***– Hər birinizi redaksiyamızda salamlayırıq. Xəyal müəllim, ilk olaraq sizdən başlayaq. Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi qanunvericilikdə necə təsbit olunub?***

***Xəyal Eyvazov:*** – Əvvəlcə onu deyim ki, demokratik idarəetmə sisteminin bir qolu kimi bələdiyyələrin fəaliyyətinin təşkilinin hüquqi əsasları Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Belə ki, Konstitusiyamızın 142-ci maddəsinin 1-ci hissəsinə əsasən ölkəmizdə yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr yerli özünüidarəetmə orqanı olmaqla mahiyyət etibarilə yerli əhaliyə ən yaxın idarəetmə formasıdır. Ölkə həyatının bütün sahələrində ardıcıl mütərəqqi islahatların həyata keçirildiyi bir şəraitdə bələdiyyələrin də öz fəaliyyətlərini təkmilləşdirmələrinə, qanunvericiliklə müəyyənləşdirilmiş gəlir mənbələrindən maksimum istifadə edərək maliyyə imkanlarını genişləndirməklə yerli məsələlərin həllində daha səmərəli rol oynamalarına ciddi ehtiyac vardır. Bu baxımdan bələdiyyə torpaqlarından yerli əhalinin ümumi mənafeyi üçün daha səmərəli istifadə edilməsi, xüsusilə əhəmiyyətlidir. Qeyd edim ki, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsinə və icarə münasibətlərinin hüquqi əsaslarının yaradılmasına böyük diqqət göstərildi və bu sahədə zəruri hüquqi baza yaradıldı.

***– Ümumiyyətlə, bələdiyyə torpaqlarının icarəyə verilmə mexanizmi necədir? Yəni torpaqlar kimə verilə bilər və bu proses necə həyata keçirilməlidir?***

***Xəyal Eyvazov:*** – Qanuna görə, torpaq icarəsi müqavilə əsasında, əvəzi ödənilməklə torpaqdan müddətli istifadə etməkdir. Bələdiyyə mülkiyyətində olan ehtiyat fondu torpaqları hüquqi və fiziki şəxslərə icarəyə verilə bilər. Hüquqi şəxslər və vətəndaşlar icarə münasibətlərində icarəyəverənlər və icarəçi kimi iştirak edirlər. Torpaqların icarəyə verilməsi bir sıra şərtlərə əməl edilməsini nəzərdə tutur, torpaqların təyinatı üzrə istifadə edilməsi, ekoloji tarazlığın gözlənilməsi və ətraf mühitin mühafizəsinin təmin edilməsi və sair. Qeyd edim ki, bələdiyyə torpaqlarının icarəyə verilməsi barədə qərar torpağı icarəyə götürmək istəyənin ərizəsi və icarəyəverənlə icarəçi arasında icarə müqaviləsi bağlanılmaqla həyata keçirilir. İcarə müqaviləsində icarəyəverən və icarəçinin adları, hüquqi ünvanları, tərəflərin hüquq və vəzifələri, torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, sərhədləri və təyinatı barədə məlumatlar, müddəti, icarə haqqı və digər məsələlər öz əksini tapmalıdır. Qanunvericiliyə görə, bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsini bələdiyyələr həyata keçirirlər. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda da bələdiyyə torpaqlarının icarəyə verilməsinin ümumi qaydaları müəyyən edilib ki, burada da həm icarəyəverənin, həm də icarəçinin müvafiq hüquqları vardır.

***– Oqtay müəllim, bələdiyyə mülkiyyətində olan torpaqlar müxtəlif təyinatlara uyğun ola bilər. Bu halda hansı bələdiyyə torpaqları icarəyə verilə bilər?***

***Oqtay Məmmədov:*** – Bələdiyyə mülkiyyətində olan bütün torpaqlar qanunvericiliklə müəyyən edilmiş qaydada icarəyə verilə bilər. Bələdiyyələrin ehtiyat fondundan yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar hüquqi və fiziki şəxslərin icarəsinə yalnız qısa müddətə verilir. Ümumi istifadədə olan torpaqların icarəyə verilməsi bələdiyyə torpaqları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur. Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatı təyinatlı torpaqları yalnız məqsədli təyinatı üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əməl edilməklə istifadəyə və icarəyə verilə bilər. Elektrik, rabitə, nəqliyyat xətləri və sənaye müəssisələrinin sanitariya-mühafizə zonaları altındakı torpaq sahələri onların mülkiyyətçilərinin və istifadəçilərinin razılığı ilə yalnız bostan və tərəvəz becərilməsi, habelə örüş və otçalımı məqsədləri üçün qısamüddətli istifadəyə və icarəyə verilə bilər.

***– Səhv etmirəmsə, torpaq icarəyə verilərkən icarəçi qarşısında müəyyən vəzifələr də qoyulur.***

***Oqtay Məmmədov:*** – Bəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində icarəçinin vəzifələri müəyyən edilmişdir. Belə ki, icarəçi icarəyə götürülmüş torpaqlardan təyinatı üzrə istifadə etmək; icarə müqaviləsinin şərtlərinə və torpaq qanunvericiliyinin tələblərinə əməl etmək; icarəyə götürülmüş kənd təsərrüfatı təyinatlı torpaqların mühafizəsi, keyfiyyətinin qorunması, bərpası və yaxşılaşdırılması üçün müvafiq aqrotexniki tədbirlər görmək; icarəyə götürülmüş torpaq sahələrini müqavilənin müddəti başa çatdıqdan sonra vaxtında geri qaytarmaq; icarəyə götürülmüş torpaq sahəsinə, ətraf mühitə və əhalinin sağlamlığına ziyan vurmamaq; torpaq sahəsindən istifadəyə görə icarə haqqını, digər tədiyyələri vaxtında ödəmək və qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirməyə borcludurlar.

***– Yəni bunlar icarəyəverənlə icarəçi arasında bağlanmış müqavilədə öz əksini tapır.***

***Oqtay Məmmədov:*** – Bəli, qanunvericilikdə torpaqların icarəyə verilməsi ilə bağlı ümumi qaydalar var ki, bunlardan biri də tərəflər arasında bağlanmış müqavilədir. Torpaq icarəsi müqaviləsi Azərbaycan Respublikası qanunvericiliyinə uyğun tətbiq olunmalıdır. İcarə müqaviləsində icarəyəverən və icarəçinin adları, hüquqi ünvanları, digər rekvizitləri, onların hüquq və vəzifələri; torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, sərhədləri və təyinatı barədə məlumatlar; icarənin müddəti, icarə haqqı, ona yenidən baxılması şərtləri və ödənilmə qaydaları; torpaqların istifadəsi, mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması şərtləri; müqavilənin dəyişdirilməsi, uzadılması, vaxtından əvvəl ləğv edilməsi və xitamı qaydası; müqavilənin şərtlərinin pozulması ilə bağlı tərəflərin məsuliyyəti və mübahisəli məsələlərin həlli qaydası kimi şərtlər nəzərdə tutulmalıdır. Eləcə də qeyd etmək istərdim ki, torpaq sahəsi üzərində müddəti on bir aydan çox olan icarə hüququ qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

***– Bəs torpaqlar nə qədər müddətə icarəyə verilir?***

– Bələdiyyə torpaqlarının icarəyə verilməsi şərtləri, müddəti və icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir və bələdiyyələr ilə həmin torpaqların icarəçiləri arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanılan müqavilədə təsbit olunur. İcarəçi icarəyə götürdüyü torpaq sahəsini subicarəyə yalnız bələdiyyələrin razılığı ilə verə bilər. İcarə müddəti tamam olanadək icarəçi öldükdə torpaq sahəsinə icarə hüququ onun vərəsələrindən birinə keçir.

***Xəyal Eyvazov:*** – Fürsətdən istifadə edib bunu da oxucularımıza bildirmək istərdim ki, bələdiyyə mülkiyyətində olan əmlaka dair mülkiyyət hüququnun həyata keçirilməsi barədə sənədlər müvafiq qanuna edilmiş son dəyişikliyə görə 5 iş günündən gec olmayaraq, Ədliyyə Nazirliyinə göndərilməlidir.

***– Xəyal müəllim, yeri gəlmişkən mərkəz tərəfindən bələdiyyələrlə iş necə qurulub?***

***Xəyal Eyvazov:*** – Bu gün bələdiyyələrin fəaliyyətinə lazımi diqqət və qayğı göstərilir. Muxtar respublikamızda həyata keçirilən infrastruktur tədbirləri nəticəsində onlar üçün hərtərəfli iş şəraiti yaradılıb. Əməkdaşlarımız tərəfindən də mütəmadi olaraq yerlərdə bələdiyyələrlə maarifləndirici görüşlər təşkil edilir, onlara metodoloji köməkliklər göstərilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün artıq bələdiyyələr yerli özünüidarəetmə orqanı kimi cəmiyyət həyatında yaxından iştirak edirlər.

***– Xaliq müəllim, torpaqların əkinə cəlb olunmasında torpaq mülkiyyətçilərinin müvafiq bilik və təcrübələrinə də istinad edilməlidir. Təmsil olunduğunuz qurumun bu işlərdə rolu nədən ibarətdir?***

***Xaliq Abbasov:*** – Təbii ki, bu gün muxtar respublikamızda əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması qarşıda duran əsas məsələlərdəndir. Burada da əsas məqsəd etibarlı ərzaq təhlükəsizliyinin yaradılması, daxili bazarın yerli məhsullarla təminatı, habelə ixrac potensialı yaratmaqdır. Son illərdə muxtar respublikamızda həyata keçirilən tədbirlər nəticəsində yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılıb ki, hazırda da bu proses davam etdirilir. O ki qaldı torpaqlardan əkin məqsədilə istifadə olunmasına, təbii ki, hər bir məhsulun əkinində müvafiq aqrotexniki qaydaların gözlənilməsi qaçılmazdır. Buna görə də Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən mütəmadi olaraq bölgələrimizdə torpaq mülkiyyətçiləri ilə görüşlər keçirilir, onlarla maarifləndirici söhbətlər aparılır. Burada məqsəd torpaqların münbitliyi nəzərə alınaraq həmin sahələrdə müvafiq əkinlərin aparılması ilə bağlı tövsiyələrin verilməsidir. Torpaq mülkiyyətçiləri ilə aparılan maarifləndirici söhbətlər, əkinlərə elmi yanaşmanı özündə cəmləşdirən yeni bukletlərin hazırlanaraq onlara paylanılması bu işlərə töhfəsini verməkdədir. Xüsusilə son illərdə muxtar respublikamızda yaradılan ailə təsərrüfatlarının əksəriyyəti əkinçiliklə məşğul olduğundan onlarla daim görüşür, fikir mübadiləsi aparır, hətta böyük təcrübəsi olan təsərrüfatçıların təcrübələrindən digər torpaq mülkiyyətçilərinin yararlanmasına da çalışırıq. Ümumi olaraq deyə bilərəm ki, bu gün muxtar respublikamızın bələdiyyə və pay torpaqlarından səmərəli şəkildə istifadə edərək ailə büdcəsini lazımınca təmin edən çoxsaylı torpaq mülkiyyətçiləri var.

***– Çox sağ olun, mövzu ilə bağlı redaksiyamıza gəlib suallarımızı cavablandırdığınız üçün hər birinizə minnətdarlığımızı bildirirəm.***

**Hazırladı: Səbuhi HƏSƏNOV**

## Türkiyə Respublikasından xüsusi tikinti-inşaat texnikaları gətirilib

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"ə əsasən ötən ildən başlayaraq qardaş ölkədən Naxçıvan Muxtar Respublikasına yeni texnikaların gətirilməsinə başlanılıb.



Tədbirlərin davamı olaraq hərbi infrastrukturun yenilənməsi işlərinin daha keyfiyyətlə aparılması məqsədilə Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına xüsusi tikinti-inşaat texnikaları gətirilib. Texnikalar Əlahiddə Ümumqoşun Orduya təhvil verilib.



Türkiyə Respublikasında Mercedes-Benzin təmsilçi və idxal şirkəti olaraq qurulmuş "Koluman Holdinq" şirkətlər qrupu tərəfindən tamamilə alman avtomobil sənayesi standartlarına uyğun istehsal olunan tikinti texnikaları yüksək keyfiyyəti ilə seçilir.

Davamlılığı, yanacağa qənaəti və rahatlığı ilə fərqlənən sementdaşıyan, betonnasos, betonqarışdıran və asfalt-beton daşıyan maşınlar sürücünün və nəqliyyat vasitələrinin təhlükəsizliyinə önəm verilməklə istehsal olunub. "Koluman Holdinq" şirkətlər qrupunun zavodlarında Cənubi Koreya Respublikasının istehsalçısı "JunJin" şirkəti ilə birgə istehsal olunan beton nasos öz keyfiyyəti ilə fərqlənir. Müasir dizayn və texnologiyalı bu maşınlar Əlahiddə Ümumqoşun Orduda təmir-tikinti işlərinin və yol infrastrukturunun yenilənməsinin daha keyfiyyətlə aparılmasına imkan yaradacaq.

İnşaat sahələrində çətin şərtlər üçün istehsal edilmiş, gücü və möhkəmliyi ilə seçilən bu texnikalardan əlavə yolxətləyən maşın və qoşqular da istifadəyə verilib. Türkiyə Respublikasının "Agri Rosso" firması tərəfindən istehsal edilən qoşqular keyfiyyəti və müasirliyi ilə daşınma və yardımçı təsərrüfat işlərini daha da asanlaşdıracaq.

Əlahiddə Ümumqoşun Ordunun təminatına qardaş Türkiyə Respublikasının milli istehsalı olan texnikaların verilməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olmasından xəbər verir.

## Birgə təlimlər keçiriləcək

Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçiriləcək. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb ediləcək.



Təlimlərə hazırlıq çərçivəsində iki qardaş ölkənin Dövlət bayraqlarını dəyişmə mərasimi keçirilib, Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyət və hərbi texnikaları Naxçıvana gəlib.

Bayraqdəyişmə mərasimində iştirak etmək üçün Əlahiddə Ümumqoşun Ordunun bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə – Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda Türkiyə Respublikasının bayraq taqımı da Doğu Bəyazid şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə doğru yürüş edib.

"Ümid" körpüsü üzərində hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib. Mərasim başa çatdıqdan sonra Türkiyə Silahlı Qüvvələrinin təlimlərə cəlb edilmiş şəxsi heyət və hərbi texnikaları təlim yerlərinə doğru hərəkəti davam etdiriblər.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində qardaş ölkənin hərbi qulluqçularının təntənəli qarşılanma mərasimi keçirilib. Mərasimdə çıxış edənlər günü-gündən inkişaf edən Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərindən və hərbi-texniki əməkdaşlıqdan danışıblar.

Sonra təlimə cəlb edilmiş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində yerləşiblər.

**Nəriman NƏCƏFOV**

## Məzunlarımızın uğuru

Bu günlərdə Naxçıvan Muxtar Respublikası, Daşkəsən, Şirvan, Ağcabədi, Bərdə, Naftalan, Saatlı, Tovuz, Gədəbəy, Şəki, Şamaxı, Ucar, Qusar, Şəmkir, Qəbələ, İsmayıllı, Zərdab, Şabran, Lerik və Yardımlıda buraxılış və qəbul imtahanları keçirilmiş, həmin imtahanların nəticələrinə əsasən Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin şagirdi İlham Hüseynquliyev 291,8 balla ölkə üzrə birinci, Babək rayon Güznüt kənd tam orta məktəbinin şagirdi Fatimə Quliyeva isə 285,3 balla ölkə üçüncüsü olmuşdur.





Qeyd edək ki, İlham Hüseynquliyev muxtar respublika fənn olimpiadasında fizika fənni üzrə 2018-2019-cu tədris ilində I yerə, 2019-2020-ci tədris ilində isə II yerə layiq görülmüşdür.

Fatimə Quliyeva isə 2017-2018-ci tədris ilində muxtar respublika fənn olimpiadasında, 2019-2020-ci tədris ilində isə respublika fənn olimpiadasında kimya fənni üzrə III yerə layiq görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Bu gün dövlətimiz tərəfindən təhsil sahəsinin diqqətdə saxlanılması, müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki bazanın və güclü kadr potensialının yaradılması xarici tələbələrin də təhsil almaq üçün ölkəmizə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana üz tutmasına səbəb olub. Bu qədim diyarda əldə olunan sosial-iqtisadi inkişaf, burada təmin olunan təhlükəsiz həyat, multikulturalizm ənənələrinin layiqincə qorunub saxlanılması Naxçıvandakı ali təhsil müəssisələrinə gələn əcnəbi tələbələrin sayının ilbəil daha da artması ilə nəticələnib.*

## Naxçıvan – sakit, firavan şəhər, mənim təhsil məbədimdir



“Naxçıvan – sakit, firavan şəhər mənim təhsil məbədimdir,” – deyən Nigeriyadan olan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin birinci kurs tələbəsi Joseph Uvezele Okpamen də artıq 2 ilə yaxın bir müddətdə muxtar respublikamızda yaşayır və təhsil alır. O deyir ki, Naxçıvana gəlməzdən əvvəl bura haqqında çox cüzi məlumatım var idi. Dostum Simon məndən əvvəl muxtar respublikaya ali təhsil almaq üçün gəlmişdi. O, burada oxuduğu illər ərzində tətil üçün ölkəmizə qayıdanda mənimlə görüşür, Naxçıvan haqqında öz təəssüratlarını bölüşürdü. Bu ərəfədə orta məktəbi bitirməyimə az bir müddət qaldığına görə dostumun dediklərinə bir daha əmin olmaq üçün internet üzərindən Naxçıvan haqqında araşdırma apardım və nəticədə, budur artıq buradayam və ali təhsil alıram.

Müsahibim qeyd edir ki, muxtar respublikada təhsilin səviyyəsi çox yüksəkdir və tədrisdə ən müasir texnologiyalar tətbiq olunur. Universitetimizdə dünyanın bir çox ölkəsindən təhsil alan tələbələr var. Əminliklə deyə bilərəm ki, Naxçıvanda gənclərin, o cümlədən xarici tələbələrin təhsil alması ilə yanaşı, yaşaması və işləməsi üçün də hərtərəfli şərait yaradılıb ki, mən də onlardan biri kimi yüksək səviyyədə ali təhsil alır, dərsdən sonra işləyirəm.

Fikrimcə, Naxçıvan mənim gördüyüm yerlər arasında multikultural dəyərləri, tolerantlığı qoruyub saxlayan və əks etdirən nadir yerlərdəndir. Burada insanlar çox mehriban, güləruzdür. Bu məni ali təhsil aldığım diyara daha çox bağlayır. Pandemiyanın dünyanı sınağa çəkdiyi bir vaxtda Azərbaycan dövləti əcnəbi tələbələrə də öz dəstəyini əsirgəməyib. Belə ki, muxtar respublikada təhsil alan bütün xarici tələbələrə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə maddi yardım, ərzaq payı, Ramazan bayramında isə iftar payı verildi. Bizə göstərilən bu qayğıya görə Azərbaycan dövlətinə, Naxçıvana minnətdarıq. Mən xoşbəxtəm ki, bu diyarda təhsil alıram. Naxçıvanda da dinindən, dilindən, irqindən asılı olmayaraq, heç kimə fərq qoyulmadan hər kəsə qayğı göstərilir. Muxtar respublikanın təmiz, abad, səliqəli və təhlükəsiz yer olması da bütün xarici tələbələrin ürəyincədir.

Joseph söyləyir ki, burada təhsil aldığım 2 ilə yaxın bir vaxtda Naxçıvanın gəzməli-görməli, tarixi yerlərində də olmuşam. Duzdağ Fizioterapiya Mərkəzi, Duz Muzeyi, Xan Sarayı Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, “Əlincəqala” tarixi abidəsi və muzeyi, eləcə də Naxçıvan şəhərində yerləşən bir çox muzey ilə tanış olmuşam. Bunun sayəsində öyrənmişəm ki, bura çox qədim tarixə malik olan yurd yeridir.

Müsahibim bildirir ki, boş vaxtlarını daha çox müxtəlif janrlarda musiqi dinləyərək dəyərləndirir. Çünki musiqini çox sevir. Nigeriyalı bir tələbənin milli musiqimiz haqqında söylədiyi bu fikirlər bir azərbaycanlı kimi insanın qəlbini qürur hissi ilə doldurur:

– Naxçıvana gələndən sonra Azərbaycan xalq mahnıları, bəstəkar mahnıları və başqa janrlarda olan musiqi nümunələri ilə maraqlandım, dinləməyə başladım. Azərbaycan xalq musiqi nümunələri məni valeh etdi. Dərslərin yorğunluğundan sonra bir neçə dəqiqə xalq musiqilərini dinləməklə bütün ruhumun dincəldiyini hiss edirəm. Bunun nəticəsidir ki, mən Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Bakıda Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə iştirak etdim, bir-birindən gözəl musiqilər, mahnılar, kompozisiyalar dinləyərək, sözün həqiqi mənasında, zövq aldım. Çünki mənim fikrimcə, musiqinin dili yoxdur və musiqi bütün dünya insanlarını birləşdirən mənəvi körpüdür.

Azərbaycan musiqisi isə ecazkar gözəlliyi ilə kimliyindən asılı olmayaraq, insanın ruhunu oxşayır, daxili aləmini zənginləşdirir, mənən saflaşdırır, gözəlləşdirir. Bu həm də xalqımızın çox qədim milli-mənəvi dəyərlərə, yüksək bədii zövqə, ali bəşəri hisslərə malik olmasından soraq verir.

Müsahibimin musiqi sevgisi ilə yanaşı, həm də gözəl səsi var və Azərbaycan xalq mahnılarını özünəməxsus şirinliklə ifa edir. Bununla bağlı o qeyd edir ki, Nigeriya xalq musiqisi ilə Azərbaycan xalq musiqisi tamamilə fərqli olduğu üçün ilk vaxtlarda xeyli çətinlik çəkdim. Bu çətinliklər arasında dil problemi də var idi. Ancaq buradakı musiqiçi dostlarımın da dəstəyi, xalq mahnılarını müntəzəm dinləməklə gözəl nəticə əldə etdim və mən artıq muxtar respublikada səhnəyə də çıxıram. Hələlik repertuarımda “Sarı gəlin”, “Bana-Bana gəl” (“Koroğlu” kinofilmindən Dəli Həsənin mahnısı), “Qaragilə”, “Ayrılıq” və digər mahnılar var və hər gün yeniləri üzərində çalışıram. Burada olduğum vaxtı yaxşı dəyərləndirib Azərbaycan muğamlarını da öyrənmək niyyətindəyəm.

Müsahibim son olaraq bildirdi ki, mən Naxçıvanda olmaqdan, burada həkimlik kimi müqəddəs peşənin sirlərinə dərindən yiyələnməklə yanaşı, çox sevdiyim ifaçılıq sənətində də uğur qazanmaqdan zövq alıram. Bunun üçün mənə burada təhsil almağı məsləhət görən dostum Simona minnətdaram. O olmasaydı, bəlkə də, mən bu gözəl məkandan hələ də xəbərsiz idim. Burada yaşadıqlarım qarşısında hər gün özümə “Nə yaxşı ki, Naxçıvandayam və nə yaxşı ki, burada təhsil alıram”, – deyirəm...

**Pərviz HACILI**

## Kəngərli rayonunda tütün qırımına başlanılıb

Kəngərli rayonunda inkişaf etdirilən sahələrdən biri də tütünçülükdür. Son illərdə



“Cahan Tabak Beynəlxalq” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən rayonda yaradılmış Tütün Yetişdirmə Təsərrüfatı bu ənənəvi sahənin inkişafını daha da sürətləndirib. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cari ildə rayonda 31 hektar sahədə tütün əkini aparılıb. Əkin zamanı, əsasən, “İzmir” və “Virciniya” tütün sortlarından istifadə olunub. Əkinlər cəmiyyətin əməkdaşları və fermerlər tərəfindən həyata keçirilib. Sahələrə vaxtlı-vaxtında aqrotexniki qaydada qulluq göstərildiyindən yüksək məhsuldarlığa nail olunub.

Tütün Yetişdirmə Təsərrüfatından aldığımız məlumata görə, iyulun 23-dən Təzəkənd, Xıncab və Böyükdüz kəndlərində tütün qırımına başlanılıb və indiyədək sahələrdən 16 min 594 kiloqram yaş tütün tədarük edilib. Hazırda tütün qırımı davam edir. Belə ki, yığılmış tənbəki Tütün Yetişdirmə Təsərrüfatındakı anbarlara gətirilərək düzülür və tütünqurutma yerində qurudulur.

Qeyd edək ki, Kəngərli rayonunda Tütün Yetişdirmə Təsərrüfatı 2017-ci ildən fəaliyyətə başlayıb. Təsərrüfatın ərazisində istixanalar, yeraltı su anbarı, tütünqurutma yeri və anbarlar yaradılıb.

**Babək İSMAYILOV**

## Taxıl sahələrinin biçindən sonra yandırılması yolverilməzdir

***Artıq iyun ayından başlayaraq muxtar respublikada intensiv taxıl biçini aparılır. Profilaktik tədbirlər nəticəsində Ordubad, Sədərək rayonlarında, eləcə də Naxçıvan şəhərində taxıl biçini təhlükəsiz başa çatıb, digər rayonlarda isə davam edir.***



Qeyd edək ki, bu strateji əhəmiyyətli məhsulun təhlükəsiz yığılması diqqətdə saxlanılaraq biçin aparılan sahələrin yaxınlığında, əlverişli yerlərdə Fövqəladə Hallar Nazirliyinin gündəlik olaraq yanğından mühafizə bölmələrinin, motoxilasedicilərin, səyyar patrul xidmətləri təşkil olunub. Nazirliyin bu sahədəki başlıca vəzifələrindən biri də biçindən sonra əkin yerlərinin yandırılmasının qarşısını almaqdır. Ötən illərin statistikasına əsaslanaraq qeyd edə bilərik ki, bu sahələrdə maarifləndirici tədbirlər əhəmiyyətli dərəcədə effektiv təsir göstərsə də, təəssüf ki, bəzi fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən biçilmiş sahələrin yandırılması hallarına hələ də rast gəlinir. Bu isə bir sıra ciddi fəsadlar törədir və qətiyyən yolverilməzdir. Yanğın zamanı yaranan yüksək temperaturun torpağın üst qatına sistematik təsiri humus ehtiyatını, torpaq biotasını məhv edir və nəticədə, torpağın fiziki-kimyəvi xassələri və mexaniki strukturu dəyişir. Vahid sahədə samanın 30-40 saniyədə yanmasına baxmayaraq, bu qısa müddət torpağın üst qatının 360 dərəcəyə qədər yanmasına kifayət edir. Bu temperaturda torpağın 0-5 santimetr qatında humusun yanması, 10 santimetr qatında isə suyun buxarlanması baş verir. Yanğından sonra torpağın həyat qabiliyyətini yenidən bərpa etməsi üçün əlavə resurslar və zaman tələb olunur.

Fermerlər və torpaq mülkiyyətçiləri bilməlidirlər ki, sahələrin yandırılması torpağın üst qatındakı mineral maddələri də yararsız hala salır. Samanın və eləcə də digər bitki qalıqlarının yandırılması həm ekoloji cəhətdən ziyandır, həm də torpağın məhsuldarlığını aşağı salır. Belə ki, sahələrin yandırılması, torpağın münbitliyinin kəskin surətdə azalmasına, üzvi maddələrin, mikroflorasının məhv olmasına səbəb olur, həm də növbəti ildəki məhsuldarlığı 20-30 faiz azaldır.

Əkin sahələrini yandıran fermerlər və torpaq mülkiyyətçiləri bilməlidirlər ki, buna görə qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati məsuliyyət daşıyırlar. Qeyd edək ki, “Torpaqların münbitliyi haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edildiyi kimi, əkinəyararlı torpaq sahələrinin münbitliyini qorumaq, ekoloji mühitə vurulan zərərin qarşısını almaq, kənd təsərrüfatında məhsuldarlığı yüksəltmək üçün İnzibati Xətalar Məcəlləsinə yeni əlavə edilmiş 244-1-ci maddəyə əsasən əkin yerini yandıran fiziki şəxslərə 400 manatdan 600, vəzifəli şəxslərə 1500 manatdan 2000, hüquqi şəxslərə isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə müəyyənləşdirilib.

Əlavə olaraq qeyd etmək istəyirik ki, artıq torpaq mülkiyyətçiləri, fermerlər və kənd sakinləri qışa tədarüklə bağlı sahələrdən mal-qara üçün yem ehtiyatı yaradır, ot-saman tayaları yığırlar. Onları evin cardağına və elektrik xətlərinin altına yığmaq yolverilməzdir. Ot-saman tayaları xüsusi ayrılmış yerlərdə yerləşdirilməli, ətrafı çəpərlənməlidir. Tayanın ətrafında və yaxınlığında tonqal qalamaq, siqaret çəkmək və açıq oddan istifadə etmək yanğın təhlükəsi yaradır.

Torpaq mülkiyyətçilərinə, fermerlərə və kənd sakinlərinə müraciət edərək bir daha onların diqqətinə çatdırırıq ki, yanğın təhlükəsizliyi və ətraf mühitin mühafizəsi məqsədilə taxıl zəmilərinin biçindən sonra yandırılmasına yol verilməməli, taxıl sahələrindən saman yandırmadan çıxarılmalı, yaxud küləşi xırdalanaraq mulça halında əkin sahələrinə verilməlidir. Taxıl zəmilərində hər hansı bir yanğın təhlükəsi ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin ***“112”*** qaynar telefon xəttinə və ya yanğın təhlükəsizliyi şöbələrinin ***“101”*** xidmətinə məlumat verilməlidir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Tənha ahıllara sosial xidmətlərin göstərilməsi davam etdirilir



Son illər muxtar respublikada sosial qayğıya ehtiyacı olan insanlara, o cümlədən tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud şəxslərə göstərilən xidmətlərin həcmi və keyfiyyəti yüksəlib, bu sahədə həyata keçirilən tədbirlər fasiləsiz xarakter alıb.

Məlum olduğu kimi, muxtar respublikada əməkqabiliyyətli yaxın qohumu ilə eyni yaşayış məntəqəsində yaşamayan və kənar şəxsin qulluğuna ehtiyacı olan tənha ahıllar müəyyənləşdirilərək onlara evlərində sosial məişət xidməti göstərilir. Bu işlərdə sosial könüllülərin fəal iştirakı isə muxtar respublikada artıq ənənə halını alıb.

Belə tədbirlərin davamı kimi altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sosial qayğıya ehtiyacı olanlara və tənha ahıllara xidmət işinin diqqətdə saxlanılması, sosial könüllülərin imkanlarından geniş istifadə olunmasına dair tapşırıqlar verilmişdir. Həmin tapşırıqların icrasına uyğun olaraq nazirlik və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Babək rayonunun Buzqov və Vayxır kəndlərində tənha yaşayan ahılların evlərinə sosial könüllülərin ziyarətləri təşkil olunub. Sosial xidmət işçiləri və könüllülər zəruri qabaqlayıcı tədbirlərə uyğun olaraq sanitar-gigiyenik qaydalara riayət etməklə evlərdə təmizlik işləri aparıb, həyətyanı sahələrdə iməcilik keçiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Yoldaşlıq görüşü keçirilib



Naxçıvan şəhərindəki “Gənclər şəhərciyi” yaşayış kompleksinin basketbol meydançasında basketbol üzrə yoldaşlıq görüşü keçirilib.

“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında keçirilən görüşdə “Sədərək” və “Kəngərli” komandaları üz-üzə gəlib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının təşkil etdiyi yoldaşlıq görüşündə Sədərək basketbolçuları 41:39 hesabı ilə qələbə qazanıblar.

Sonda hər iki komandaya basketbol topu hədiyyə olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 550